# 7 Məsləhətləşmə və ictimaiyyətə açıqlama

## Mündəricat

7.1 Giriş ....... 7-2
7.2 Məsləhətləşmə və ictimaiyyətə açıqlama prosesinə ümumi baxış ....... 7-2
7.3 Əvvəlki ƏMSSTQ və əlaqədar maraqlı tərəflər ilə cari məsləhətləşmə ....... 7-3
7.4 Həcmin müəyyənləşdirilməsi üzrə məsləhətləşmə və açıqlama ....... 7-4
7.4.1 AYDH üzrə ilkin stolüstü məsləhətləşmə ....... 7-4
Elmi-Tədqiqat Balıq Təsərrüfatı Institutu, ETSN ....... 7-4
7.4.2 Həcmin müəyyənləşdirilməsi üçün ETSN ilə məsləhətləşmə ....... 7-4
7.5 ƏMSSTQ üzrə məsləhətləşmə ....... 7-5
7.5.1 Sosial-iqtisadi tədqiqat ....... 7-5
7.5.2 Mədəni irsin piyada tədqiqi ....... 7-5
7.5.3 Layihə barədə məlumatlandırıcı kitabçalar ....... 7-6
7.6 ƏMSSTQ hesabatının sn layihə variantı ilə əlaqədar ictimaiyyət ilə məsləhətləşmə və açıqlama 7-6
7.7 ƏMSSTQ-dən sonra layihə barədə məsləhətləşmələr ....... 7-6
7.8 Espoo Konvensiyası əsasında məsləhətləşmə ....... 7-7

## Şəkillərin siyahısı

Şəkil 7.1: ƏMSSTQ üzrə məsləhətləşmə və açıqlama prosesi ....... 7-3

## Cədvəllərin siyahısı

Cədvəl 7.1: Stolüstü məsləhətləşmə ərzində məsləhətləşmə aparılmış müəssisələr və təşkilatlar 7-4

## 7.1 Giriş

Maraqlı tərəflərlə məsləhətləşmə Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) prosesinin əhəmiyyətli elementidir. Təsirə məruz qala bilən və maraqlı tərəflərin mülahizələrinin toplanması, tutuşdurulması və sənədləşdirilməsi layihənin və ƏMSSTQ-nin işlənib hazırlanması zamanı əsas maraqlı tərəflərin kollektiv fikirlərinin nəzərə alınması təmin edilir.

3Ö Seysmik Tədqiqat və ƏMSSTQ-nin ictimaiyyətə açıqlanması prosesi ilə əlaqədar məsləhətləşməyə və maraqlı tərəflərin cəlb olunmasına dair xülasə bu fəsildə təqdim edilir.

## 7.2 Məsləhətləşmə və ictimaiyyətə açıqlama prosesinə ümumi baxış

3Ö Seysmik Tədqiqat üzə ƏMSSTQ ilə əlaqədar maraqlı tərəf ilə məsləhətləşmə zamanı:

- BP-nin Azərbaycandakı digər layihələri üçün müəyyənləşdirilmiş konsultasiya prinsiplərindən və metodlarından istifadə edilib;
- ƏMSSTQ üzrə məsləhətləşmə və açıqlama gözləntilərinə dair qəbul olunmuş təlimatlar əsas götürülüb;
- Son illər ərzində aparılmış məsləhətləşmə və açıqlama proseslərinin miqyası nəzərdən keçirilib; və
- ƏMSSTQ prosesi ərzində aşağıdakıların cəlb olunması tələbi qəbul edilib:
    - Milli dövlət orqanları, o cümlədən:
        - Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN);
        - Mədəniyyət və Turizm Nazirliyi (M və TN);
        - Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Memarlıq Komitəsi;
        - Fövqəladə Hallar Nazirliyi;
        - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;
        - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR); və
        - Azərbaycanın Dövlət Dəniz Administrasiyası və Dəniz Donanmasının Naviqasiya və Okeanoqrafiya Xidmətləri.
    - Azərbaycanın Milli Elmlər Akademiyasının İnstitutları:
        - Botanika İnstitutu;
        - Arxeologiya və Etnoqrafiya İnstitutu (AEİ); və
        - Milli Tarix Muzeyi, və s.

Prosesə cəlb olunmuş yerli maraqlı tərəflərə AYDH üzrə spesifik tədqiqatlar ərzində əlaqə saxlanmış yerli biznes müəssisələri, torpaq sahibləri, sakinlər, balıqçılar və yerli hökumət məmurları daxil olmuşdur (aşağıdakı Bölmələr 7.5.1 və 7.5.2-yə istinad edin).

3Ö Seysmik Tədqiqat üzrə ƏMSSTQ ilə əlaqədar konsultasiya və açıqlama prosesi aşağıdakı Şəkil 7.1-də təsvir edilir.

3Ö Seysmik Tədqiqat üzrə ƏMSSTQ-nə dəstək üçün İctimaiyyətlə Məsləhətləşmə və Açıqlama Planı (İMAP) hazırlanmışdır. İMAP-da ən yaxşı yanaşma üsullarını təmin etmək üçün məsləhətləşmənin və açıqlamanın məqsədləri və layihə üzrə məsləhətləşmə və açıqlama zamanı riayət ediləcək milli və beynəlxalq normativ təsvir edilir.

İMAP-da həmçinin:

- maraqlı tərəflərin müəyyənləşdirilməsi və onlarla məsləhətləşmənin aparılması prosesi;
- ƏMSSTQ müddətində planlaşdırılmış və tamamlanmış məsləhətləşmə prosesi; və
- şikayətlərin qəbulu və onlara cavab verilməsi prosesi müəyyənləşdirilmişdir.

**Şəkil 7.1: ƏMSSTQ üzrə məsləhətləşmə və açıqlama prosesi**




## 7.3 Əvvəlki ƏMSSTQ və əlaqədar maraqlı tərəflər ilə cari məsləhətləşmə

BP 1990-cı illərin ortalarından Azərbaycanda fəaliyyət göstərir və regionda həyata keçirdiyi bir neçə layihənin nəticəsində əsas maraqlı tərəflər ilə güclü iş əlaqələri yaratmışdır.

Son 15 il ərzində BP Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) Çıraq Neft Layihəsi, Azəri-Çıraq-Güneşlinin (AÇG) 1, 2 və 3-cü Fazaları, Şahdənizin 1-ci və 2-ci Fazaları kimi layihələr, həmçinin, Azərbaycandan Gürcüstana neft və qaz layihələri (məsələn, Cənubi Qafqaz Boru Kəməri (CQBK)) üçün ƏMSSTQ proseslərini həyata keçirmişdir. Qeyd olunan ƏMSSTQ-lər üçün biznes müəssisələri, yerli hökumət orqanları, yerli sakinlər, torpaq istifadəçiləri və balıqçılar daxil olmaqla, maraqlı tərəflər, o cümlədən, hökumət, tədris və elm müəssisələri, qeyri-hökumət təşkilatları (QHT) və

təsir məruz qalacağı ehtimal edilən yerli maraqlı tərəflər ilə geniş məsləhətləşmə aparılmışdır. BP-nin İcma və Xarici Əlaqələr Qrupunun rəhbərliyi altında bu məsləhətləşmə layihələrin tikintisi və istismarı ərzində davam etmişdir. Bu əvvəlki məsləhətləşmə zamanı əldə edilmiş təcrübə AYDH 3Ö Seysmik Tədqiqat üzrə məsləhətləşmə üsulu barədə məlumat verməyə kömək etmişdir.

## 7.4 Həcmin müəyyənləşdirilməsi üzrə məsləhətləşmə və açıqlama

### 7.4.1 AYDH üzrə ilkin stolüstü məsləhətləşmə

AYDH layihəsi üçün stolüstü məlumatların toplanmasından ibarət məsləhətləşmənin ilk mərhələsi 2015-ci ilin aprel və iyul ayları arasında tamamlanmışdır. İlkin stolüstü məlumatların toplanmasının məqsədi seysmik tədqiqat fəaliyyətlərinin təsirinə məruz qala bilən sahələrdə cari ilkin şəraitin başa düşülməsinə imkan yaratmaq üçün hökumət və tədris müəssisələrinin, şirkətlərin və digər orqanların malik olduğu müvafiq, mövcud məlumatları əldə etməkdən ibarət olmuşdur. Məsləhətləşmə əsasən layihənin və layihə sahəsinin qısa xülasəsinin daxil olduğu yazılı məlumat tələblərinin müvafiq maraqlı tərəflərə təqdim olunmasından ibarət olmuşdur. İlkin stolüstü məsləhətləşmə prosesinin tərkib hissəsi kimi məsləhətləşmə aparılmış təşkilatlar və müəssisələr Cədvəl 7.1-də təqdim edilir.

**Cədvəl 7.1: Stolüstü məsləhətləşmə ərzində məsləhətləşmə aparılmış müəssisələr və təşkilatlar**

| Müəssisə / Təşkilatlar | |
|---|---|
| Azərbaycan Dövlət Dəniz Administrasiyası | Mədəniyyət və Turizm Nazirliyi (M və TN) |
| Xəzər Dəniz Gəmiçiliyi | İqtisadi İnkişaf Nazirliyi |
| Elmi-Tədqiqat Balıq Təsərrüfatı Institutu, ETSN | Fövqəladə Hallar Nazirliyi |
| İçəri Şəhər Dövlət Tarix və Memarlıq Qoruğu | Əmək və Əhalinin Müdafiəsi Nazirliyi |
| Arxeologiya və Etnoqrafiya Institutu, Azərbaycan Milli Elmlər Akademiyası | Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) |
| Botanika İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası | Milli Tarix Muzeyi |
| Coğrafiya İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası | Dəniz Donanmasının Naviqasiya və Okeanoqrafiya Xidmətləri |
| Geologiya İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Memarlıq Komitəsi |
| Fiziologiya İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası | Dövlət Statistika Komitəsi |
| Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və aqrokimya İnstitutu | SOCAR |
| Zoologiya İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyası | “Təmiz Şəhər” layihəsi |

Məsləhətləşmə aparılmış bu tərəflərin cavabları və təqdim etdiyi məlumatlar qeydə alınıb və müvafiq məlumatlar hazırki ƏMSSTQ sənədinin 5 və 6-cə fəsillərinə daxil edilib.

### 7.4.2 Həcmin müəyyənləşdirilməsi üçün ETSN ilə məsləhətləşmə

2015-ci ilin 20 avqust tarixində 2Ö[1] və 3Ö AYDH Seysmik Tədqiqatların hər ikisinin iş həcminin müəyyənləşdirilməsi üçün ETSN ilə görüş keçirilmişdir. ƏMSSTQ-nin tərkib hissəsi olaraq qiymətləndirilməsi təklif olunmuş layihənin əsas aspektlərinin icmalına əlavə olaraq hər iki tədqiqatın xülasəsi, o cümlədən, tədqiqat üsulları, əsas layihə fəaliyyətləri və göstərici qrafik təqdim edilmişdir. Tədqiqatların məqsədi və əhatə dairəsi daxil olmaqla, 3Ö Seysmik Tədqiqat üzrə ƏMSSTQ barədə məlumat vermək üçün aparılması planlaşdırılan ilkin vəziyyətə dair tədqiqatların xülasəsi təqdim edilmişdir (səs-küy, mədəni irs, ekologiya və sosial-iqtisadi sahə ilə əlaqədar aparılmış tədqiqatlar barədə əlavə təfərrüatlar üçün 5 və 6-cı fəsillərə istinad edin).

[1] 2Ö Seysmik Tədqiqat fəaliyyətləri ayrıca qiymətləndirilib və ƏMSSTQ 2015-ci ilin noyabrında təsdiq edilib.

Görüş ərzində BP-nin layihə qrupu ümummilli miqyasda qorunan Abşeron Milli Parkında fəaliyyətlərin həyata keçirilməyəcəyini təsdiqləmişdir; bununla belə, yeraltı məlumatları əldə etmək üçün ətraf Bufer Zonanın daxilində fəaliyyətlər planlaşdırılmışdır. Bufer Zona sahəsi kəşfiyyat potensialı nöqteyi-nəzərdən əvvəllər xarakterizə olunmamış AYDH Kontrakt Sahəsinin əhəmiyyətli hissəsini təmsil edir.

ETSN bildirmişdir ki, onların ilkin nəzərinə görə Abşeron Milli Parkının Bufer Zonasında hər hansı işlənmə fəaliyyətlərinin həyata keçirilməsi qadağandır. Layihənin bu aspekti ilə əlaqədar əlavə müzakirənin tələb olunduğu və qeyd olunan müzakirələrin ƏMSSTQ-in açıqlanması prosesi ərzində davam etdiriləcəyi razılaşdırılmışdır.

ETSN sosial-iqtisadi tədqiqatın əhatə dairəsinə seysmik tədqiqat fəaliyyətlərinin mənfi təsirinə məruz qala bilən kiçik miqyaslı balıq ovu ilə məşğul olan balıqçıların daxil edilməsi və planlaşdırılan tədqiqat da daxil olmaqla, mədəni irs ilə əlaqədar bütün məsləhətləşmələrə AEİ və M və TN-nin cəlb edilməsi ilə razılaşmışdır.

## 7.5 ƏMSSTQ üzrə məsləhətləşmə

ƏMSSTQ sənədinin hazırlanması zamanı maraqlı tərəflər ilə məsləhətləşmələr davam etdirilmişdir. Bu prosesə aşağıdakılar daxil olmuşdur:

- Əlavə stolüstü məsləhətləşmələr (o cümlədən, təsirə məruz qalmış icmalarda zəif ola bilən insanların mövcud olub-olmamasının, miqrasiya ərzində suitilər üçün həssas sahələrin, kommersiya məqsədilə balıq növlərinin və balıqçılıq fəaliyyətlərinin əlavə müəyyənləşdirilməsi ilə əlaqədar aydınlaşdırmalar və spesifik məlumatlar üçün tələblər); və
- Aşağıda təsvir edildiyi kimi sosial-iqtisadi və mədəni irs tədqiqatları ərzində məsləhətləşmələr.

Toplanmış məlumatlardan hazırki ƏMSSTQ sənədinin 5 və 6-cı fəsillərinin hazırlanması ərzində istifadə edilmişdir.

### 7.5.1 Sosial-iqtisadi tədqiqat

2015-ci ilin noyabr ayında quruda 3Ö Seysmik Tədqiqat Sahəsində (Prioritet Sahə 1, 2 və 3-də) sosial-iqtisadi tədqiqat aparılmışdır. BP-nin İcma ilə əlaqə üzrə məsul şəxslərinin (İƏMŞ) dəstəyi ilə Sulaco yerli şirkət tərəfindən aparılmış tədqiqat bir neçə maraqlı tərəflər ilə yarımstruktur müsahibələrdən (və ya təsadüfi müsahibələrdən) və torpaq sahələrindən istifadə və istirahət fəaliyyətləri ilə əlaqədar müşahidələri qeydə almaq üçün sahil xətti boyu vizual piyada tədqiqatdan ibarət olmuşdur. Üç Prioritet Sahə boyu təsadüfi müsahibələrdə iştirak etmək üçün müraciət etmiş şəxslər:

- torpaq istifadəçilərindən və yerli icmaların sakinlərindən;
- kiçik miqyaslı / kustar balıq ovu ilə məşğul olan balıqçılardan; və
- biznes sahiblərindən və mehmanxanaların, sahilyanı istirahət məkanlarının və digər turizm obyektlərinin nümayəndələrindən ibarət olmuşdur.

Sosial-iqtisadi tədqiqata başlamazdan qabaq tədqiqatın məqsədi və hədəfləri barədə məlumat vermək üçün müvafiq yerli orqanlara məktub ilə müraciət edilmişdir. Bu orqanlara Qaradağ, Səbail, Suraxanı, Xətai və Xəzər rayonlarının icra hakimiyyətləri daxil olmuşdur.

### 7.5.2 Mədəni irsin piyada tədqiqi

İlkin stolüstü məsləhətləşmə prosesinin tərkib hissəsi kimi M və TN və AEİ tərəfindən təqdim edilmiş abidələrin siyahısını və onların yerləşdiyi sahələri yoxlamaq və quruda 3Ö Seysmik Tədqiqat Sahəsində hər hansı əlavə mədəni irs elementlərini müəyyənləşdirmək üçün 2015-ci il 30 oktyabr və 6 noyabr tarixləri arasında mədəni irsin piyada tədqiqi aparılmışdır. Tədqiqat qrupu AEİ-nin nümayəndələrinin dəstəklədiyi AECOM şirkətinin mədəni irs mütəxəssislərindən ibarət olmuşdur.

Tədqiqatın başlanmasından qabaq tədqiqatın həcmi barədə məlumatı təqdim etmək üçün Bakıda M və TN-nin nümayəndəsi ilə görüş keçirilmişdir. Bundan sonra nəticələri təqdim etmək üçün tədqiqatın sonunda yekun görüş keçirilmişdir.

Mədəni irsin piyada tədqiqi ərzində tədqiqat barədə məlumat vermək məqsədilə tədqiqat qrupu Suraxanı rayon İcra Hakimi və Zirə və Hövsan qəsəbələrinin bələdiyyələri ilə görüşmüşdür. Zirə və Hövsan bələdiyyələrinin nümayəndələri hər iki qəsəbədəki abidələrin yerləşdiyi sahələrin müəyyənləşdirilməsində yardım göstərmişdir.

### 7.5.3 Layihə barədə məlumatlandırıcı kitabçalar

Sosial-iqtisadi tədqiqat ərzində təsadüfi müsahibənin iştirakçılarına 3Ö Seysmik Tədqiqat barədə xülasə verilmiş, tədqiqatın məqsədi izah edilmiş və tədqiqat ilə əlaqədar şikayətin olduğu təqdirdə BP-nin nümayəndəsinin əlaqə saxlayacağı şəxs barədə ətraflı məlumatlar verilmiş layihə barədə məlumatlandırıcı kitabçalar təqdim edilmişdir. Mədəni irsin piyada tədqiqi ərzində məsləhətləşmələr aparılmış maraqlı tərəflərə də eyni kitabçalar təqdim edilmişdir. Bu günə qədər hər iki tədqiqat ilə əlaqədar rəsmi şikayət təqdim edilməmişdir.

## 7.6 ƏMSSTQ hesabatının son layihə variantı ilə əlaqədar ictimaiyyət ilə məsləhətləşmə və açıqlama

Azərbaycanda Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Prosesi üçün Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNDP) kitabçasına müvafiq olaraq, ETSN-ə son ƏMSSTQ hesabatının layihə variantı təqdim ediləcək və iradlarını bildirməsi üçün eyni zamanda ictimaiyyətə və maraqlı tərəflərdən ibarət qrupa açıqlanacaqdır. İki ay ərzində ETSN-nin BP-yə cavab təqdim edəcəyi gözlənilir. Qeyd olunan iki aylıq ictimaiyyətlə məsləhətləşmə və açıqlama müddəti ərzində BP ictimaiyyətlə və müvafiq maraqlı tərəflərdən ibarət qrup ilə görüşlər keçirəcəkdir.

Son ƏMSSTQ hesabatın layihə variantı və Qeyri-Texniki İcmal ingilis və Azərbaycan dillərində nəşr ediləcəkdir. Layihə sənədlərinin, həmçinin, rəy formalarının surətləri kütləvi informasiya vasitələrindən və internet və e-poçt kimi kommunikasiya kanallarından istifadə olunaraq nəzərdən keçirmək üçün ictimaiyyətə təqdim olunacaqdır.

Son ƏMSSTQ hesabatın layihə variantının və Qeyri-Texniki İcmalın surətləri aşağıdakı yerlərdə ictimaiyyətin istifadəsinə veriləcəkdir:

- BP-nin veb-səhifəsi;
- BP Xəzər mərkəzi Ofisinin qəbul otağı, Bakı;
- Qaradağ, Səbail, Suraxanı, Xətai və Xəzər rayonlarının mədəniyyət evləri və/yaxud dövlət kitabxanaları;
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Bakı;
- Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Təhsil Nazirliyi;
- M. F. Axundov adına Dövlət Kitabxanası, Bakı;
- Azərbaycan Dövlət Neft Akademiyası Kitabxanası; və
- Azərbaycan Elmlər Akademiyasının Elmi Kitabxanası.

Son ƏMSSTQ hesabatın layihə variantı ilə əlaqədar alınmış iradlar tutuşdurulacaq və analiz ediləcəkdir. Məsləhətləşmə aparılmış tərəflərdən alınmış iradlara cavablar üç aylıq məsləhətləşmə müddəti başa çatdıqdan sonra və ETSN-ə ümumi cavabın tərkib hissəsi kimi mümkün qədər tez təqdim ediləcəkdir.

Bütün iradlar və şərtlər razılaşdırıldıqdan sonra ETSN tərəfindən təsdiq edilmiş son ƏMSSTQ təqdim ediləcəkdir.

## 7.7 ƏMSSTQ-dən sonra layihə barədə məsləhətləşmələr

3Ö Seysmik Tədqiqat ərzində davamlı məsləhətləşmə və açıqlamaya ehtiyac olacaqdır. Bu məsləhətləşmənin əsas prinsipləri İMAP-da təqdim edilmişdir. Bu layihələr və 3Ö Seysmik Tədqiqat arasında fərqlər nəzərə alınmaqla, məsləhətləşmə BP-nin əvvəlki layihələri üçün müəyyənləşdirilmiş məlum məsləhətləşmə və açıqlama prosesinə əsaslanacaqdır.

Layihə barədə məlumatın çatdırılması və düzgün auditoriyaya təqdim edilməsi nöqteyi-nəzərdən hələ müvafiq və effektiv olduğuna əmin olmaq üçün 3Ö Seysmik Tədqiqat fəaliyyətlərinin başlanğıcında məsləhətləşmə prosesi nəzərdən keçiriləcəkdir.

## 7.8 Espoo Konvensiyası əsasında məsləhətləşmə

Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasını (yəni, Espoo konvensiyasını) imzalamış tərəf qismində Azərbaycan hökuməti Azərbaycanın ərazisində həyata keçirilən işlənmələrin nəticəsində transsərhəd təsirlərə məruz qala bilən ölkələrə erkən bildiriş təqdim etməyə borcludur.

Potensial transsərhəd təsirlər, o cümlədən, istixana emissiyaları ilə əlaqədar potensial təsirlər hazırki ƏMSSTQ sənədinin 10-cu fəslində təqdim edilir və ƏMSSTQ üzrə açıqlama prosesinin tərkib hissəsi kimi ETSN ilə müzakirə ediləcəkdir.